Astrid Lindqren

# Damda yaşayan Karlson yenə də dəcəllik edir

# DAMDA YAŞAYAN KARLSON
## yenə də dəcəllik edir



ASTRİD LİNDQREN

First published in 1955 by Rabèn & Sjögren, Sweden.
For more information about Astrid Lindgren, see www.astridlindqren.com.
All foreign rights are handled by Saltkråkan AB, Lidingö, Sweden.
For more information, please contact info@saltkrakan.se

© Text: Astrid Lindgren 1955/Saltkråkan AB
© Illustrations: Ilon Wikland

**Astrid Lindgren Karlsson på taket smyger igen**
**Astrid Lindqren Damda yaşayan Karlson yenə də dəcəllik edir**
Bakı, "Əli və Nino" Nəşriyyatı, 2016, 208 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq

Tərcümə: Əzizə Əhmədova
Korrektorlar: Ceyran Abbasova
Nigar Musayeva
Rəssam: Ilon Wikland
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

"Əli və Nino" Nəşriyyatı
Bakı, AZ 1005, Z.Tağıyev küç., 19
Tel.: (+994 12) 493 04 12
(+994 12) 493 93 68
e-mail: info@alinino.az
www.alinino.az

ISBN 978-9952-38-388-1

© Astrid Lindgren, 1955
© "Əli və Nino" Nəşriyyatı, 2016

# Hamının Karlson olmağa haqqı var

Bir dəfə səhər yuxulu ikən Balaca mətbəxdən həyəcanlı səslər eşitdi. Anası ilə atası nədənsə narahat idilər. Ata dedi:

– Əlbəttə, əvvəl-axır belə olmalı idi! Bir bax gör, qəzetdə nə yazılıb. Al, bir oxu.

Ana içini çəkdi:

– Ay aman, bu lap müsibətdir!

Balaca o saat sıçrayıb yataqdan qalxdı. Bilmək istəyirdi ki, bu müsibət nədir? Bildi də.

Qəzetin birinci səhifəsində, iri hərflərlə belə bir başlıq verilmişdi:

*"BU, UÇAN ÇƏLLƏKDİR, YA NƏDİR GÖRƏN?"*

Başlığın altındakı məqalədə deyilirdi:

*“Stokholmun üzərində qəribə məşum bir varlıq uçur. Gələnlər xəbər verirlər ki, son vaxtlar Vazastan ərazisində dəfələrlə Balaca pivə çəlləyini xatırladan əşya görüblər. O uçur, mühərrik uğultusuna bənzər səsi var. Aviakompaniyanın nümayəndələri, bu uçuş barədə bizə heç bir məlumat verə bilməyiblər. Güman ki, bu, xarici casus-sputnikdir, kəşfiyyat məqsədilə bizim səmaya buraxılıb: Bu uçuşların sirri açılmalı, naməlum məxluq ələ keçməlidir. Əgər o doğrudan da, casus olarsa istintaq aparmaq üçün mütləq polisə təhvil verilməlidir.*

*Görəsən, Vazastanın bu sirrini kim açacaq?*

*“Qəzet redaksiyası 10000 kron mükafat təyin edir. Bu sirli əşyanı tutan adam 10000 kron mükafat alacaqdır. Onu tutun, redaksiyaya gətirin, mükafatı alın!”*

Ana dedi:

– Yazıq damda yaşayan Karlson. İndi onun dalınca düşəcəklər. Balaca, eyni zamanda, həm qorxdu, həm hirsləndi, həm də pərt oldu. O qışqırdı:

– Niyə Karlsondan əl çəkmirlər? Onun kimə ziyanı dəyir? Öz damdakı evində yaşayır, bir də ora-bura uçur. Karlsonun günahımı var?

Ata dedi:



– Yox. Karlsonun günahı yoxdur. Ancaq... necə deyim... bir qədər qəribədir də...

Karlson, doğrudan da, qəribə idi və Balaca bu fikirlə razılaşmağa məcbur idi. Axı cumbulu, tosqun bir adamın damdakı xırdaca evdə yaşaması özü qeyri-adi idi, üstəlik, bu adamın kürəyində mühərrik, qarnında isə düymə var idi.

Karlson məhz belə qeyri-adi insan idi. Balacanın da ən yaxın dostuydu. Bəli, onun ən yaxın dostu məhz Karlson idi. Krister ilə Qunilla deyildi, halbuki Balaca elə onları da çox istəyirdi, axı Karlsonun başı qarışıq olanda, yaxud qəflətən aradan çıxanda Balaca Kristerlə, Qunilla ilə oynayırdı.

Karlson təkidlə deyirdi ki, nə Krister, nə də Qunilla onun tayı ola bilməzlər və Balaca hər dəfə onların adını çəkəndə Karlsonun çox acığı tuturdu.

Karlson hirslənib deyirdi:

– O pompuşları mənə tay etməkmi olar? Mən ki qəşəng, ağıllı, həddi-büluğa çatmış cəsur kişiyəm. Yoxsa elə bilirsən, səfeh oğlanların hamısına mənim kimi dost qismət olub? Hə, cavab ver də!

– Yox, yox, bu ancaq mənə qismət olub, – Balaca sevinə-sevinə təsdiq edirdi. Nə yaxşı ki Karlson onların damında yaşayır. Axı Vazastanda Sevaites onun ailəsi yaşayan bu ev kimi yöndəmsiz, qədim ev nə qədər istəsən var. Balacanın bəxti onda gətirib ki, Karlson təsadüfən məhz onların damında yaşamağa başlayıb, başqa damda yox.

Doğrudur, Balacanın atası ilə anası Karlsonun onların evinə ayaq açmasından əvvəl-əvvəl narazı idilər. Bosse də, Betan da ilk əvvəl Karlsonu bəyənmədilər. Balacadan savayı, əlbəttə, ailə üzvlərinin hamısı o vaxt belə hesab edirdi ki, Karlson dünyanın ən axmaq, ən qaba, ən dələduz adamıdır. Ancaq zaman keçdikcə hamı ona alışdı. İndi Karlsondan xoşları gəlirdi, ən başlıcası da o idi ki, onlar başa düşdülər ki, Balaca Karlsonsuz yaşa-

ya bilməz. Çünki Bosse ilə Betan Balacadan çox böyük idilər. Balaca isə yaxın dostu olmasa yaşaya bilməzdi. Doğrudur, onun əla bir iti – Bimbosu var idi, bununla belə, Karlson ona hava və su kimi lazım idi.

Ana dedi:

– Mənə belə gəlir ki, Karlson da Balacasız keçinə bilməz.

Lap əvvəldən ana ilə ata demişdilər ki, Karlson barədə heç kəsə bir söz deyilməsin. Onlar çox yaxşı bilirdilər ki, televiziya idarəsində Karlsondan xəbər tutsalar, evlərində nə həngamə qopacaq, qəzet, jurnallar isə "Karlson öz evində" adlı məqalələr çap etmək istəyəcəklər.

Bosse dedi:

– Əgər biz bir gün hər hansı bir jurnalda Karlsonun şəklini görsək, nə məzəli olar... Təsəvvür edirsən, Karlson öz qonaq otağında oturub bir dəstə qızılgülə tamaşa edir...

Balaca onun sözünü kəsdi:

– Bəsdir! Bilirsən ki, Karlsonun qonaq otağı yoxdur, vur-tut bircə otağı var, orda da qızılgül yoxdur.

Bunu elə Bossenin özü də bilirdi. Ata, ana, Bosse və Betan tək bircə dəfə Karlsonun evi-



ni görmüşdülər. Onlar bacadan dama dırmaşmışdılar, bu, soba təmizləyənlərin yolu idi və Karlson borunun dalındakı xırdaca evi onlara göstərmişdi.

Ana damdan aşağı, küçəyə baxanda bir azca xoflanmışdı da. Başı gicəlləndiyindən borudan yapışmışdı. O demişdi:

– Balaca bax elə bu saat mənə söz ver ki, heç vaxt dama təkcə qalxmayacaqsan.

Balaca bir az götür-qoy edib dedi:

– Yaxşı, mən heç vaxt dama tək çıxmayacağam, sonra isə pıçıldadı: – bircə Karlsonla.

Ana, deyəsən, onun son sözlərini eşitmədi, nə etmək olar, günah onun özündədir. Axı Balacanın Karlsonla görüşməsini o, necə qadağan edə bilər? Axı ana heç təsəvvür edə bilmir ki, Karlsonun cürbəcür qeyri-adi, əcaib şeylərlə ağzınacan